DÖVLƏT VERGİ XİDMƏTİ

# Faydalı qazıntıları çıxaran vergi ödəyiciləri mədən vergisini yalnız dövlət büdcəsinə ödəməlidirlər

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

❖ Mədən vergisi üzrə ödənişlər yalnız dövlət büdcəsinə ödəniləcək;

❖ Gips və gəc məhsullarının da hər kubmetri üçün 1,0 manat mədən vergisi tətbiq ediləcəkdir.

Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Nə dəyişdi?

01.01.2022-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən, yerli əhəmiyyətli tikinti materialları üzrə (kərpic-kiramid gilləri, tikinti qumları, çınqıl xammalı) mədən vergisi bələdiyyə büdcəsinə ödənilməli idi.

## 01.01.2022-ci il tarixdən etibarən isə...

Yerin təkindən çıxarılan faydalı qazıntı növü olan gips və gəc məhsulları mədən vergisinə cəlb edilən malların dairəsinə daxil edilməklə yanaşı, faydalı qazıntıların bütün növləri üzrə vergilər dövlət büdcəsinə ödəniləcəkdir.

**Mədən vergisi ilə bağlı ətraflı məlumatla "Mədən vergisi" adlı bukletdən tanış ola bilərsiniz.**

BAKI — 2022